Erməni Apostol Kilsəsinin Gürcüstan Yeparxiyası yenə də növbəti təxribat yönlü tədbirini həyata keçirib.

24news.ge armenianchurch.ge saytına istinadən xəbər verir ki, Erməni Apostol Kilsəsinin Gürcüstan Yeparxiyası nəzdində fəaliyyət göstərən “Hayartun” mədəniyyət və təhsil mərkəzi tərəfindən dekabr ayının 12-də “Tanınmayanlar Tanınanlar Haqında” adlı tədbir keçirilmişdir.

Ərazisi işğal altında olan bir ölkədə öz çirkin siyasətlərini həyata keçirməklə digər bir ölkənin işğal altında olan Dağlıq Qarabağ ərazisinə aid tarixi məkanları ermənilər öz tarixi abidələri kimi təqdim ediblər.

Tədbirdə rəssam Qoar Akopyan ad-soyadlı rəssamın Azərbaycanın işğal altında olan Hadrut (Xocavənd) və Əsgəran bölgələrinə səfəri və orada mövcud olan tarixi abidələr barədə bəhs etmişdir.

Tədbir zamanı müəllif Martuni rayonunun (Dağlıq Qarabağda), Hadrut və Əskəran rayonlarında mövcud olan tarixi və mədəni abidələri erməni mədəni abidələri kimi təqdim edib.